## Azərbaycanda Milli Preventiv Mexanizm funksiyalarını kim həyata keçirir?

Müvəkkil səlahiyyət müddəti ərzində toxunulmazdır.

Müvəkkil səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula və ya saxlanıla bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz.

Müvəkkil işləmiş şəxs vəzifədən getdikdən sonra da, səlahiyyətlərini həyata keçirdiyi dövrdəki fəaliyyətinə və söylədiyi fikirlərə görə toxunulmazdır.

Milli preventiv qrupun üzvü öz funksiyalarını həyata keçirməsi ilə əlaqədar ona məlum olmuş faktlar barəsində ifadə verməyə və ya hər hansı digər üsulla bu faktları açıqlamağa məcbur edilə bilməz. Bu təminat Milli preventiv qrupun üzvü qrupun tərkibindən çıxdıqdan sonra da qüvvədə qalır.

Milli preventiv qrupun üzvü saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə öz funksiyalarını həyata keçirərkən tutula və ya saxlanıla bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Milli preventiv qrupun üzvünün poçt, teleqraf və digər göndərişlərinin üzərinə həbs qoyulmasına, onların yoxlanılmasına və ya götürülməsinə yol verilmir.

## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)


Bakı şəhəri, Üzeyir Hacıbəyli 80,
Hökümət evi, 2-ci Ala qapı

Tel: (012) 493 74 22

Email: ombudsman@ombudsman.az
apparat@ombudsman.az

Ombudsmanın Qərb Regional Mərkəzi
(022) 256 05 65
Ombudsmanın Şimal-Qərb Regional Mərkəzi
(024) 244 01 33
Ombudsmanın Şimal Regional Mərkəzi
(023) 335 15 99
Ombudsmanın Cənub Regional Mərkəzi
(025) 215 19 16

Sayt: www.ombudsman.az
Çağrı Mərkəzi: 916
Facebook: /ombudsman.az
Twitter : @az.ombudsman


# AZƏRBAYCAN RESPUBLİKASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ (OMBUDSMAN)

İşgəncələrin qarşısının alınması üzrə

# MİLLİ PREVENTİV MEXANİZM



**OMBUDSMAN TƏSİSATI – 20 İL**

## Milli Preventiv Mexanizm mandatı

"İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu işgəncə və pis rəftar hallarının qarşısının alınması məqsədilə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasını nəzərdə tutur.

## Azərbaycanda Milli Preventiv Mexanizm funksiyalarını kim həyata keçirir?

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununun 1.2-ci maddəsinə əsasən Müvəkkil "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını həyata keçirir.

## Milli Preventiv Mexanizmin məqsədi nədir?

Milli Preventiv Mexanizmin məqsədi öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan şəxslərin işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısını almaqdan ibarətdir.

## Milli Preventiv Qrup:

Milli Preventiv Mexanizmin funksiyalarının həyata keçirilməsi məqsədilə Ombudsman Aparatında Milli preventiv qrup yaradılır.

## Milli Preventiv Qrupun hansı səlahiyyətləri var?

-istənilən vaxt saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə daxil olmaq;
-saxlanılan şəxslərlə, yaxud müvafiq məlumatı verə biləcək istənilən digər şəxslə təkbətək görüşmək və söhbət etmək;
-saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və onların surətlərini almaq akt tərtib etmək və s.

## Milli Preventiv Qrupun tərkibinə kimlər daxildir?

Milli Preventiv Qrupun üzvləri Ombudsman tərəfindən 3 il müddətinə təyin edilir. Qrupun tərkibinə ixtisasca hüquqşünas, həkim və psixoloq və digər peşələrdən olan şəxslər daxildir.

## Hansı müəssisələrə başçəkmə keçirilir?

Azərbaycan Respublikasında şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə Ombudsmanın və onun Milli Preventiv Qrupunun xəbərdarlıq etmədən istənilən vaxt daxil olmaq hüququ vardır.
Bu müəssisələrə polis bölmələri, müvəqqəti saxlama yerləri, istintaq təcridxanaları, cəzaçəkmə müəssisələri, qarnizon haupvaxtları, psixiatriya müəssisələri, qanunsuz miqrantların saxlanılması mərkəzləri və saxlanılan şəxslərin tərk edə bilmədiyi digər yerlər daxildir.

## Hansı məsələlər monitorinq edilir?

Ombudsman və onun əməkdaşları Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində başçəkmələri zamanı aşağıdakı məsələləri monitorinq edir:
-Rəftar məsələləri (şəxslərin işgəncə və insan ləyaqətinə alçaldan cəza və rəftardan müdafiəsi məsələləri);
-Saxlanma şəraiti (şəxslərin zəruri maddi şəraitə uyğun müəssisələrdə saxlanılması, sıxlıq problemi, müxtəlif kateqoriyadan olan şəxslərin ayrı saxlanılması, işıqlandırma və havalandırma, sanitariya və şəxsi gigiyena məsələləri, tibbi xidmətin əlçatanlığı, qidalanma və s.;
-Saxlanılan şəxslərin hüquqlarının təminatı məsələləri (tibbi yardım, görüş hüququ, telefonla danışığı, ibadət hüququ, bağlama, sovqat və banderol almaq, mülki hüquq münasibətlərində iştirak etmək, notariusun xidmətlərin istifadə etmək hüququ və s.)

## Hansı tədbirlər görülür?

Başçəkmələrdən sonra onun nəticələrinə dair hesabat tərtib edilir, məlumatlar təhlil olunur, rəftar və şəraitin yaxşılaşdırılması üçün tövsiyələr hazırlanaraq müvafiq qurumlara göndərilir.
Bundan başqa qəbul edilmiş şəxslərin qaldırdıqları məsələlər araşdırılır, müvafiq qurumlara sorğular göndərilir, tədbirlərin görülməsi tələb olunur.